# Dost Dosta Tən  Gərək

© Azərbaycan Nağılları. 5 cilddə, 5-ci cild.
Azərbaycan SSR EA Nəşriyyatı, Bakı - 1964

Günlərin bir günü şir, qurd, bir də tülkü dost oldular. Bunlar şərt qoydular ki, hər nə tapsalar bir yerdə yesinlər. Həm də bir-birinə kömək eləsinlər. Bir gün şir bir öküz, qurd bir qoyun, tülkü də bir toyuq gətirdi. Şir qurda dedi:
—Bunları bölüşdür.
Qurd dedi:
—Şir ağa, öküz sənin, çünki sən böyüksən. Səndən xırda mənəm, qoyun da mənim. Hamımızdan kiçik tülküdü. Toyuq da tülkünün olsun.

Bu bölgü şirin xoşuna gəlmədi, dartıb qurdun dərisini boğazından çıxartdı, qurdu parça-parça elədi. Tülkü bunu görəndə üzünü şirə tutub dedi:
—Şir ağa, qulaq as, gör mən necə bölürəm.

Boz öküz naharın olsun.
Gündüz yeməyin qoyun oldun.
Şam yeməyin toyuq olsun.
Tülkü kənarda qalsın.

Bu bölgü şirin çox xoşuna gəldi. Tülküyə afərin dedi:
—Bu bölgü qaydasını kimdən öyrənmisən?
Tülkü gülə-gülə dedi:
—Sən qurdun dərisini boğazından çıxaranda mən dərsimi aldım.
—Mərhəba, yaxşı dərs almısan, — deyə şir heyvanların üçünü də yedi.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: oktyabr, 2003-cü il